*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (2) 2025*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:12.11.2024*
*Kabul tarihi |Accepted:18.03.2025*
*Yayın tarihi |Published:25.04.2025*

**Rəna İsmayılova**

***https://orcid.org/0009-0008-7429-073X***
*Doctor of Philosophy in pedagogy, Head of the Department of Scientific Researches of Heydar Aliyev Academy of the State Security Service of the Republic of Azerbaijan, Azerbaijan, rena111213@mail.ru*

***Atıf Künyesi | Citation Info***

İsmayılova, R. (2025). Azərbaycan Ali Təhsil Müəssisələrində Kommunikativ Yanaşma Əsasında İngilis Dilinin Tədrisinin Effektivliyi. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (2), 654-663.

# Azərbaycan Ali Təhsil Müəssisələrində Kommunikativ Yanaşma Əsasında İngilis Dilinin Tədrisinin Effektivliyi

***Xülasə***

*Bu tədqiqat işi Azərbaycan ali təhsil müəssisələrində kommunikativ yanaşma əsasında ingilis dilinin tədrisinin effektivliyini araşdırır. Tədqiqatda həm ənənəvi, həm də müasir tədris metodlarının müqayisəli təhlili aparılmış, kommunikativ yanaşmanın üstünlükləri və çatışmazlıqları müəyyənləşdirilmişdir. Məqalədə eyni zamanda, Azərbaycan tələbələri üçün ingilis dilinin tədrisi metodikasında müasir yanaşmalar araşdırılır. Tədqiqatın nəticəsi kimi qeyd etmək olar ki, müasir metodlar tələbələrin öyrənmə prosesinə müsbət təsir göstərir. Burada eyni zamanda ingilis dilinin tədrisində istifadə olunan metodların effektivliyi və tələbələrin dil bacarıqlarının inkişafındakı rolu da müzakirə edilir. Tələbələrin fərdi öyrənmə tərzləri, motivasiyaları və istifadə etdikləri strategiyalara da münasibət bildirilir. Məqalədə müəllimlərin peşəkar inkişafının ingilis dili tədrisinin keyfiyyətinə təsiri məsələlərinə də toxunulur. Məqalədə nəticə olaraq qeyd edilir ki, ingilis dili qlobal əhəmiyyəti ilə ön plana çıxır və onun tədrisi metodikası tələbələrin dil bacarıqlarını inkişaf etdirmək üçün vacibdir. Müasir yanaşmaların tətbiqi, tələbələrin motivasiyasını artırır və onların öyrənmə prosesini daha effektiv edir. Gələcək tədqiqatlar, bu sahədəki problemlərin həllinə yönəlməlidir.*

***Açar sözlər:*** *Kommunikativ Yanaşma, İngilis Dili Tədrisi, Azərbaycan Ali Təhsili, Metodika, Effektivlik Müasir Yanaşmalar*

# Effectiveness of English Language Teaching Based on Communicative Approach in Azerbaijan Higher Education Institutions

***Abstract***

*This research study examines the effectiveness of English language teaching based on the communicative approach in Azerbaijani higher education institutions. The comparative analysis of both*

Creative Commons Licence BY NC

*traditional and modern teaching methods is carried out in the study and the advantages and disadvantages of the communicative approach are identified. The article also analyses modern approaches to teaching English to Azerbaijani students. As a result of the study, it can be said that modern methods have a positive effect on students' learning process. In addition, the effectiveness of the methods used in English language teaching and their role in the development of students' language skills are discussed. Students' individual learning styles, motivation and attitudes towards the strategies used are also reported. The article also discusses the impact of teachers' professional development on the quality of English language teaching. The article concludes that English has emerged as a global language and teaching methodology is important in developing students' language skills. The application of contemporary approaches increases students' motivation and makes learning processes more effective. Future research should focus on solving problems in this area.*

***Keywords:*** *Communicative Approach, English Language Teaching, Azerbaijan Higher Education, Methodology, Effectiveness of Modern Approaches*

## Giriş

İngilis dilinin beynəlxalq ünsiyyət vasitəsi kimi əhəmiyyəti durmadan artmaqdadır. Azərbaycanda ingilis dilinin tədrisi metodikasının təkmilləşdirilməsi və müasir tələblərə uyğunlaşdırılması aktual məsələlərdən biridir. Bu kontekstdə kommunikativ yanaşmanın tətbiqi xüsusi əhəmiyyət kəsb edir. İngilis dili, qlobal kommunikasiya və mədəniyyətin ayrılmaz bir hissəsi olaraq, müasir dövrdə ən çox öyrənilən dillərdən biridir. Beynəlxalq ticarət, elm, texnologiya və mədəniyyət sahələrindəki rolu ingilis dilini öyrənməyin vacibliyini artırır. Azərbaycan kontekstində ingilis dilinin tədrisi metodikasında müasir yanaşmaların tətbiqi tələbələrin dil bacarıqlarını inkişaf etdirmək üçün vacibdir. Bu məqalənin məqsədi müasir tədris metodlarının Azərbaycan tələbələri üçün effektivliyini araşdırmaqdır. Müəllimlərin peşəkar inkişafı ingilis dili tədrisinin keyfiyyətini artırmaq üçün vacibdir. Bu məqalənin məqsədi həm də müəllimlərin peşəkar inkişaf proqramlarının ingilis dili tədrisinin keyfiyyətinə təsirini öyrənməkdən ibarətdir. Müasir qloballaşma dövründə ingilis dilinin beynəlxalq ünsiyyət vasitəsi kimi əhəmiyyəti durmadan artır. Azərbaycanın dünya birliyinə inteqrasiyası prosesində ingilis dilini səriştəli şəkildə bilən mütəxəssislərə tələbat yüksəkdir. Bu baxımdan, ali təhsil müəssisələrində ingilis dilinin səmərəli tədrisi xüsusi aktuallıq kəsb edir. Kommunikativ yanaşma, dil tədrisində ən effektiv metodlardan biri kimi qəbul edilir və dünya təcrübəsində geniş tətbiq olunur.

## 1. Müasir tədris metodları

Xarici dil sadəcə ünsiyyət vasitəsidir, ikitərəfli münasibətləri, o cümlədən siyasi, iqtisadi və mədəni əlaqələri inkişaf etdirmək vasitəsidir. Deyə bilərik ki, xarici dil dövlətlər, xalqlar,

mədəniyyətlər arasında "körpü"dür və toplum üçün öz mədəniyyətinin dəyərlərini dərindən dərk etmək üçün ən yaxşı vasitədir (Ağasiyev, 2024). Müasir tədris metodları, tələbələrin aktiv iştirakını təmin edən və onların öyrənmə prosesini daha cəlbedici edən yanaşmalardır. J. Harmer müasir metodların tələbələrin motivasiyasını artırdığını və onların dil bacarıqlarını inkişaf etdirdiyini qeyd edir (Harmer, 2015). Bu metodlar arasında kommunikativ yanaşma, layihə əsaslı öyrənmə və oyun metodları yer alır. Kommunikativ yanaşma, dil öyrənmənin əsas məqsədinin real həyatda dilin istifadəsi olduğunu vurğulayır, danışıq bacarıqlarını artırır və onların dil öyrənmə motivasiyasını yüksəldir, Azərbaycan məktəblərində bu yanaşmanın tətbiqi, tələbələrin dil bacarıqlarını inkişaf etdirmək üçün geniş imkanlar təqdim edir. Bu məqalədə qeyd etdiyimiz yanaşma barədə ayrıca tədqiqat aparacağıq.

Layihə əsaslı öyrənmə, tələbələrin müəyyən bir mövzu ətrafında layihələr hazırlayaraq, dil bacarıqlarını praktikada tətbiq etmələrini təmin edir. Z. Dörnyei layihə əsaslı öyrənmənin tələbələrin müstəqil düşünmə qabiliyyətini artırdığını qeyd edir (Dörnyei, 2014). Məlumdur ki, xarici dili tədris edən müəllimləri və tələbələri maraqlandıran əsas məsələ öyrənilən dildən kommunikasiya vasitəsi kimi istifadə etmək məsələsidir. Lakin sözügedən kontekstdə dili tədris edən müəllim və dili mənimsəməkdə olan tələbələrin qarşısında duran əsas məqsəd kommunikativ məqsəd və bacarıqların inkişaf etdirilməsi deyil, tədris edilən xarici dildə kommunikativ səriştənin formalaşdırılmasıdır (Şirəliyeva, 2022). Tələbələr, layihələr vasitəsilə aktiv şəkildə iştirak edərək, öyrənmə prosesini daha cəlbedici hala gətirirlər. Layihə əsaslı öyrənmə, tələbələrin real həyatda dil istifadə etmələrini təşviq edir. Tələbələr, layihələr vasitəsilə tədqiqat aparma və problem həll etmə bacarıqlarını inkişaf etdirirlər. Onu da qeyd edək ki, bəzi məktəblərdə müasir tədris resurslarının olmaması, layihə əsaslı öyrənmənin effektivliyini azalda bilər. Oyun metodları, dil öyrənmə prosesini əyləncəli hala gətirir, tələbələrin yeni sözləri öyrənmələrinə və dil bacarıqlarını inkişaf etdirmələrinə kömək edir, uşaqlar və yeniyetmələr üçün dil öyrənmə prosesini daha cəlbedici edir. Məsələn, "Simon Says" və "Word Bingo" kimi oyunlar, tələbələrin dil bacarıqlarını artırmaq üçün effektivdir.

## 2. Kommunikativ yanaşma - dil öyrənmənin əsas məqsədinin həyata keçirilməsində ünsiyyət bacarıqlarının inkişafını müəyyən edən bir metodologiya kimi

Kommunikativ yanaşma, dil öyrənmənin əsas məqsədinin real həyatda kommunikasiya bacarıqlarının inkişafı olduğunu vurğulayan bir yanaşmadır. Bu yanaşma, dilin yalnız qrammatik qaydalarına deyil, eyni zamanda onun sosial və mədəni kontekstinə də diqqət yetirir. Onun məqsədi tələbələrin dil bacarıqlarını artırmaqla yanaşı, onların gündəlik həyatda dilin istifadəsini asanlaşdırmaqdır.

Vol.12 /Num 2
April 2025

Kommunikativ yanaşma 1970-ci illərdə dil tədrisində yeni bir dövr açmışdır. Bu yanaşma, dilin sosial funksiyalarını ön plana çıxararaq, ənənəvi qrammatik yanaşma metodlarından fərqlənir. Müasir dövrdə, kommunikativ yanaşma dünya üzrə dil tədrisində geniş şəkildə qəbul edilmişdir. Azərbaycanda da bu yanaşma, ali təhsil müəssisələrində ingilis dilinin tədrisində tətbiq olunur və tələbələr, dilin sosial kontekstində aktiv iştirak edərək öyrənirlər. Tələbələrin fərqli öyrənmə üslubları nəzərə alınaraq, kommunikativ yanaşma müxtəlif metodların birləşdirilməsini tələb edir. Kommunikativ yanaşma əsasında hazırlanan dərs planları, tələbələrin aktiv iştirakını təmin edən fəaliyyətlər ilə zənginləşdirilməlidir. Məsələn, rol oyunları, qrup işləri, müzakirələr, təqdimatlar və layihə işləri.

Müəllimlər tələbələrin öyrənmə prosesində fasilitator (bələdçi) rolunu oynayaraq, onların öz fikirlərini ifadə etmələrini təşviq etməlidirlər. Kommunikativ yanaşma dil öyrənmə prosesini daha effektiv və maraqlı edir. Bu yanaşma tələbələrin dil bacarıqlarını inkişaf etdirmək və onların real həyatda dil istifadəsini asanlaşdırmaq məqsədini güdür. Bu yanaşma, dilin yalnız qrammatik strukturlarını deyil, həm də onun sosial və funksional aspektlərini öyrənməyi nəzərdə tutur. Kommunikativ yanaşmanın nəzəri əsasları aşağıdakı prinsiplərə əsaslanır:

Kommunikativ kompetensiya, dilin yalnız qrammatik cəhətdən düzgün istifadəsi deyil, həm də onun kontekstual və sosial uyğunluğunu əhatə edir. Bu konsepsiya, dil öyrənənlərin müxtəlif ünsiyyət situasiyalarında effektiv şəkildə iştirak etmələrini təmin edir (Hymes, 1972). Kommunikativ yanaşma, dilin funksional istifadəsinə diqqət yetirir. Dil öyrənənlər, dilin müxtəlif funksiyalarını, məsələn, məlumat vermə, sorğu etmə, təklif etmə və s. öyrənirlər. Bu, dilin real həyat situasiyalarında istifadəsini asanlaşdırır (Canale & Swain, 1980). Kommunikativ yanaşma interaktiv və tələbə mərkəzli tədris metodlarını təşviq edir. Bu metodlar tələbələrin aktiv iştirakını və dil bacarıqlarının praktik inkişafını təmin edir. Rollu oyunlar, qrup müzakirələri və simulyasiyalar bu yanaşmanın əsas komponentləridir (Littlewood, 1981). Dil öyrənmədə mətn və kontekstin əhəmiyyəti vurğulanır. Tələbələr, dilin müxtəlif kontekstlərdə necə istifadə edildiyini öyrənərək, daha geniş və dərin dil bilikləri əldə edirlər (Widdowson, 1978). Kommunikativ yanaşma, autentik materialların istifadəsini təşviq edir. Bu materiallar, tələbələrin real dünya dil istifadəsi ilə tanış olmalarına və dil bacarıqlarını daha effektiv inkişaf etdirmələrinə kömək edir (Nunan, 1989). Mədəniyyət, dil öyrənmənin ayrılmaz bir hissəsi kimi qəbul edilir. Tələbələr, dilin mədəni kontekstini öyrənərək, daha dərin bir anlayış və daha yüksək səviyyədə kommunikativ kompetensiya əldə edirlər (Byram, 1997). Bu nəzəri əsaslar, kommunikativ yanaşmanın dil öyrənmədə effektivliyini artıran və tələbələrin dil bacarıqlarını inkişaf etdirən əsas amillərdir.

Qloballaşan dünyada xarici dil biliklərinin, xüsusən də ingilis dilinin əhəmiyyəti danılmazdır. Bu səbəbdən, Azərbaycanda da ingilis dilinin tədrisinə böyük önəm verilir. Lakin, ənənəvi tədris metodlarının müasir tələblərə cavab verməməsi, tələbələrin dil bacarıqlarının inkişafını ləngidir. Bu məqsədlə Azərbaycan tələbələrinin ingilis dilini daha effektiv öyrənmələri üçün "Kommunikativ Dil Təlimi" (KDT) modelinin tətbiqi vacib elementlərdən biri hesab olunur.

KDT, 1970-ci illərdə ortaya çıxan və dilin ünsiyyət vasitəsi olduğunu vurğulayan bir yanaşmadır (Richards & Rodgers, 2014). Bu modelə görə, dil öyrənmək, qrammatik qaydaları əzbərləməkdən daha çox, real həyat situasiyalarında ünsiyyət qurmağı bacarmaq deməkdir.

KDT-nin əsas prinsipləri bunlardır (Littlewood, 1981).

• Tələbələr dilin qrammatik quruluşundan daha çox, mənanı anlamağa və çatdırmağa yönəldilir.

• Dərslər real həyatda istifadə olunan dil nümunələri və ünsiyyət fəaliyyətləri ilə zənginləşdirilir.

• Tələbələr passiv dinləyici deyil, aktiv iştirakçı olurlar.

• Tələbələr səhvlərindən öyrənməyə təşviq olunur.

Azərbaycanda ingilis dili tədrisi əsasən ənənəvi qrammatik-tərcümə metoduna əsaslanır. Bu metod, dilin qrammatik qaydalarına və lüğət əzbərləməyə çox diqqət yetirir, lakin ünsiyyət bacarıqlarının inkişafını təmin etmir.

KDT modelinin Azərbaycanda tətbiqi bir sıra çətinliklərlə üzləşir:

• Müəllimlərin KDT haqqında məlumat və təcrübəsinin az olması

• Uyğun tədris materiallarının olmaması

• Böyük sinif ölçüləri

• Qiymətləndirmə sisteminin KDT prinsiplərinə uyğun olmaması

• Təklif edilən həll yolları

• Müəllimlər üçün KDT üzrə təlimlərin təşkili

• KDT prinsiplərinə uyğun tədris materiallarının hazırlanması

• Qiymətləndirmə sistemində ünsiyyət bacarıqlarına daha çox yer verilməsi.

KDT, Azərbaycan tələbələrinin ingilis dilini daha effektiv öyrənmələri üçün böyük potensiala malikdir. Lakin, bu modelin uğurlu tətbiqi üçün müəllimlərin, təhsil siyasəti qurucularının və digər maraqlı tərəflərin birgə səyləri vacibdir. Kommunikativ yanaşmanın tətbiqi Azərbaycan ali təhsil müəssisələrində ingilis dilinin tədrisi prosesinin effektivliyini

əhəmiyyətli dərəcədə artırır. Bununla belə, bu yanaşmanın uğurlu tətbiqi üçün müəllimlərin peşəkar inkişafı və tədris resurslarının təkmilləşdirilməsi vacibdir.

**3. İngilis dilinin qlobal əhəmiyyəti və onun tədrisi metodikası**

İngilis dili, dünya üzrə 1.5 milyarddan çox insan tərəfindən danışılır və 375 milyon insan üçün ana dildir (Crystal, 2003). İngilis dili, beynəlxalq təşkilatlarda, elmi tədqiqatlarda və biznes mühitində geniş istifadə olunur. Bu dilin öyrənilməsi, tələbələrə qlobal bazarda rəqabət qabiliyyəti qazandırır.

İngilis dilinin tədrisində istifadə olunan metodlar tələbələrin dil bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif yanaşmalar təqdim edir. Harmer (2015) müasir tədris metodlarının tələbələrin motivasiyasını artırdığını və onların öyrənmə prosesini daha cəlbedici etdiyini qeyd edir (Harmer, 2015). Müəllimin tədris prosesində istifadə edə biləcəyi və eyni zamanda maraqlı interaktiv metodlardan biri də Case study metodudur. Bu, tələbənin müəyyən bir problemlə üzləşdiyi zaman öyrəndiyi texnikaları tətbiq etmək metodudur. Keys tədqiqatı müxtəlif məlumat mənbələrindən istifadə etməklə müəyyən edilmiş kontekstdə real məsələnin araşdırılmasını asanlaşdırır. Keys tədqiqatının aparılması tələbələrə müəyyən üstünlüklər verir (Babasoy, 2023). İnteraktiv yanaşmalar, tələbələrin dərs prosesinə aktiv şəkildə cəlb edilməsini təmin edir. Bu yanaşmalar, tələbələrin motivasiyasını artırır və onların dil öyrənmə prosesini daha əyləncəli edir. J. Harmer interaktiv metodların dil öyrənmənin effektivliyini artırdığını vurğulayır, çünki tələbələr real həyatda dil istifadə etməyə daha çox hazır olurlar (Harmer, 2015). Rol oyunları və dram, tələbələrin dil bacarıqlarını inkişaf etdirmək üçün interaktiv yanaşmalardır. Bu metodlar, tələbələrin real həyatda qarşılaşa biləcəkləri situasiyalarda dil istifadə etmələrini təşviq edir, tələbələrin özünə inamını artırır və dil bacarıqlarını praktikada tətbiq etməyə kömək edir. Müzakirələr və debatlar tələbələrin fikirlərini ifadə etməyi öyrənmələrinə kömək edir. Bu metod, onların danışıq bacarıqlarını inkişaf etdirir və tənqidi düşünmə qabiliyyətini artırır. Müasir texnologiyalar, interaktiv yanaşmaların tətbiqini asanlaşdırır. Onlayn platformalar, mobil tətbiqlər və interaktiv alətlər, tələbələrin dil öyrənmə prosesini daha cəlbedici edir.

Müasir tədris sisteminin qarşısında duran əsas vəzifələrdən biri xarici dillərin, ilk novbədə müasir dünyada qlobal ünsiyyət vasitəsi kimi qəbul edilmiş ingilis dilinin öyrədilməsi və öyrənilməsinin səmərəliliyini artırmaqdan ibarətdir. Günümüzdə gənclərin əksəriyyəti dildən kommunikativ məqsədlərlə istifadə etmək qabiliyyətinə yiyələnməyi arzulayırlar. İngilis dili tədrisini səmərəliləşdirən amillərdən biri audio-video texnikadan istifadə etməkdir. İngilis dilinin tədrisi zamanı tələbələrin maraq və tələbatları nəzərə alınmalı və tədris edilən fənnin

məzmun və məqsədlərinə uygun olaraq seçilmiş audio və video materiallar, autentik filmlər vasitəsi ilə tələbələr dil və nitq materialını düzgün və adekvat şəkildə mənimsəyirlər. Bunun nəticəsində kommunikativ niyyətlərinə müvəffəqiyyətlə nail ola bilirlər (Qaralı, 2022). Azərbaycan Respublikasının ali təhsil müəssisələrində xarici dillərin kommunikativ məqsədlə tədrisi və bu məqsəddən irəli gələn vəzifələrin həyata keçirilməsi tələbələrdə xarici dildə ünsiyyət yaratmaq vərdişi və bacarığının formalaşdırılıb inkişaf etdirilməsi ilə səciyyələnir (Quliyeva, 2018). Müəllimlərin peşəkar inkişafı, onların tədris bacarıqlarını artırmaq və müasir tədris metodları ilə tanış olmalarını təmin etmək məqsədini güdür. Peşəkar inkişaf proqramları, müəllimlərin yeni metodlar öyrənmələrinə və tədris prosesini daha effektiv hala gətirmələrinə kömək edir.

Müəllimlərin yeni metodlar sayəsində təcrübələri artdıqca və bu təlimə kifayət qədər müəllim cəlb olunduqca, yeni metodiki tövsiyələrə, təlim resurslarına və digər metodiki vəsaitlərə təlabat artır (İsayeva, 2021). Peşəkar inkişaf proqramlarının effektivliyi, müəllimlərin tədris metodlarına və tələbələrin öyrənmə nəticələrinə olan təsiri ilə ölçülür. Müəllimlərin peşəkar inkişafı ingilis dili tədrisinin keyfiyyətini artırmaq üçün vacibdir. Peşəkar inkişaf proqramları müəllimlərin tədris bacarıqlarını artırır və tələbələrin öyrənmə nəticələrini müsbət yöndə dəyişdirir.

Daxili motivasiya tələbənin fənnə olan münasibətini aydınlaşdırır və xarici dilə yiyələnmənin təkmilləşməsini təmin edir. Müəllimin müvəffəqiyyəti o zaman özünü büruzə verir ki, hər bir dilə praktik yiyələnməyə istiqamətləndirən şərtlər hazırlasın, elə tədris metoduna üstünlük verilsin ki, hər bir tələbə aktivliyini, yaradıcılığını nümayiş etdirə bilsin (Quliyeva, 2021). İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi sahəsində çalışan müəllimə ehtiyac təhlilləri (need analysis), kurs dizaynı (course designing) və material seçimi (material selection) lazımdır. Bu cür fəaliyyətlər silsiləsi EAP kontekstində daha çox lazımdır. Qiymətləndirici kimi müəllimlər təkcə tələbələrin linqvistik bilik və bacarıqlarını deyil, öz tərtib etdiyi material və kursu qiymətləndirməlidir. Ümumiyyətlə, sözügedən tədrisin yayılması ingilis dilinə geniş təsirlə səciyyələnir (Əzizova & Əliyeva, 2021). Müəllimlərin dili öyrətmək üçün istifadə etdikləri tədris vasitələri fərqlidir, lakin hamısı istər-istəməz öyrənənin zehni öyrənmə fəaliyyətlərini hədəf alır. Bugünkü cəmiyyətdə texnologiya, öyrənmə və tədris bir-birinə bağlıdır və daim inkişaf edir. Bu cür real həyat təcrübəsi yeni təhsil məzmunu təmin etmək üçün bir istinad oldu. Bu baxımdan, ali təhsilin genişləndirilməsi üçün düzgün əxlaqi və elmi istiqamətdə hərəkət etmək getdikcə daha zəruridir (Qaraşova, 2021). Qeyd edilənlərə əsasən Azərbaycan ali təhsil müəssiələrində kommunikativ yanaşma əsasında ingilis dilinin

tədrisinin effektivliyini əldə etmək üçün aşağıda göstərilən təklif və tövsiyələrin məqsədəmüvafiqliyini hesab edirik:

*Müəllimlərin kommunikativ metodika üzrə, eyni zamanda onlayn tədris platformaları ilə tanış olmaları üçün təlimlərdə iştirakının təmin edilməsi, beynəlxalq təcrübə mübadiləsi proqramlarının təşkili və peşəkar inkişaf imkanlarının yaradılması;

*Tədris materiallarının kommunikativ yanaşmaya uyğunlaşdırılması və ingilis dili tədrisi üçün müasir resursların təmin edilməsi, onlayn resurslardan istifadənin artırılması və virtual öyrənmə mühitinin yaradılması;

*Texnoloji vasitələrdən istifadənin genişləndirilməsi;

*Qiymətləndirmə sisteminin kommunikativ bacarıqlara fokuslanması;

*Tələbələrin fərdi öyrənmə tərzlərinin nəzərə alınması, onların motivasiyasının artırılması.

**Nəticə**

Tədqiqatda nəticə olaraq qeyd edirik ki, ingilis dili qlobal əhəmiyyəti ilə ön plana çıxır və onun tədrisi metodikası tələbələrin dil bacarıqlarını inkişaf etdirmək üçün vacibdir. Müasir yanaşmaların tətbiqi, tələbələrin motivasiyasını artırır və onların öyrənmə prosesini daha effektiv edir. Gələcək tədqiqatlar, bu sahədəki problemlərin həllinə yönəlməlidir. İnteraktiv yanaşmalar, ingilis dili tədrisində tələbələrin dil bacarıqlarını inkişaf etdirmək üçün əhəmiyyətli bir rol oynayır. Oyun metodları, rol oyunları, müzakirələr və müasir texnologiyaların istifadəsi Azərbaycan kontekstində ingilis dili tədrisinin keyfiyyətini artırır. Azərbaycan tələbələrinin dil öyrənmə strategiyaları onların müvəffəqiyyətinə müsbət təsir edir. Tələbələrin fərdi öyrənmə tərzləri və motivasiyaları onların dil öyrənmə prosesindəki uğurlarını artırır. Tədqiqat göstərir ki, kommunikativ yanaşmanın tətbiqi Azərbaycan ali təhsil müəssisələrində ingilis dili tədrisinin effektivliyini əhəmiyyətli dərəcədə artırır. Bu metod tələbələrin ünsiyyət bacarıqlarının inkişafına, real həyat situasiyalarında dildən istifadə qabiliyyətinin formalaşmasına müsbət təsir göstərir. Lakin metodun uğurlu tətbiqi üçün sistemli yanaşma, müəllim hazırlığı və müvafiq resursların təmin edilməsi vacibdir. Azərbaycan ali təhsil müəssisələrində ingilis dilinin tədrisi, ölkənin qlobal arenada rəqabət qabiliyyətini artırmaq məqsədilə strateji əhəmiyyət kəsb edir. Bu kontekstdə kommunikativ yanaşmanın tətbiqi, tələbələrin dil bacarıqlarının inkişafında mühüm rol oynayır. Lakin, mövcud vəziyyətin təhlili göstərir ki, bu yanaşmanın tam potensialından istifadə etmək üçün bəzi çətinliklər və inkişaf sahələri mövcuddur. Müəllimlərin əksəriyyəti ənənəvi tədris metodlarına üstünlük verir. Kommunikativ yanaşmanın effektiv tətbiqi üçün müəllimlərin bu metodologiya üzrə təlim

keçməsi və peşəkar inkişaf imkanlarının artırılması zəruridir. Bu təhlil göstərir ki, Azərbaycan ali təhsil müəssisələrində kommunikativ yanaşmanın tətbiqi üçün bəzi struktur və metodoloji dəyişikliklər tələb olunur. Tədris proqramlarının, müəllim hazırlığının və tədris resurslarının təkmilləşdirilməsi tələbələrin dil bacarıqlarının inkişafına və ingilis dilinin effektiv tədrisinə əhəmiyyətli töhfə verə bilər.

**İstinadlar**

Ağasiyev, İ. (2024). Azərbaycanda Rus Dilinin Yayılmasına Tarixi Kontekstdə Baxış. *Akademik Tarih ve Düşünce Dergisi*, *11*(6), 3830-3840.

Babasoy, Y. (2023). Dil tədrisində istifadə edilən interaktiv metodlar. Naxçıvan Dövlət Universiteti. *Dil bacarıqlarının inkişafında yeni texnika və metodların tətbiqi" mövzusunda I Respublika elmi-praktiki konfransının materialları*. (ss. 77-79). Qeyrət nəşriyyatı.

Byram, M. (1997). *Teaching and assessing intercultural competence Cleveland.* Multilingual Matters.

Canale, M., & Swain, M. (1980). Theoretical bases of com-municative approaches to second language teaching and testing. *Applied linguistics*, *1*(1), 1-47.

Crystal, D. (2003). *English as a global language*. Cambridge university press.

Dörnyei, Z. (2014). *The psychology of the language learner: Individual differences in second language acquisition*. Routledge.

Əzizova, Z. & Əliyeva, X. (2021). Ali təhsil müəssisələrində ingilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi metodikası. *Mingəçevir Dövlət Universiteti, Dayanıqlı inkişaf,* 1 (1), 112-120.

Harmer, J. (2015). *The practice of English language teaching (With DVD)*. pearson.

Hymes, D. (1972). On communicative competence. *sociolinguistics*, *269293*, 269-293.

İsayeva, F. (2021). Xarici dilin tədrisində innovativ metodlar. *Linqvistika problemləri*. 2, 68-75.

Littlewood, W. (1981). *Communicative language teaching.* Cambridge university press.

Nunan, D. (1989). *Designing tasks for the communicative classroom.* Cambridge university press.

Qaralı, A. (2022). İngilis dilinin öyrənilməsində kommunikativ təlim metodu. Elmi iş. *Beynəlxalq elmi jurnal*, 16 (4), 142-146.

Qaraşova, Y. (2021). Rəqəmsal cəmiyyət və ingilis dilinin tədrisi xüsusiyyətləri. *Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri*, 88 (4), *Xarici dillərin tədrisi metodikası*, 150-157.

Quliyeva, N. (2018). Ali təhsil müəssisələrində xarici dilin kommunikativyönlü tədrisi. *Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri,* 85 (7), 156-159.

Quliyeva, N. (2021). İradə Cəfərova. Xarici dilin tədrisində motivasiyanın əhəmiyyəti. *Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri*, 88 (6), 158-162.

Richards, J. C., & Rodgers, T. S. (2014). *Approaches and methods in language teaching*. Cambridge university press.

Şirəliyeva, G. (2022). İngilis Dilinin Qrammatikasının Tədrisində Kommunikativ Yönümlü Yanaşmanın Tətbiqi Üsulları. *Azərbaycan Dillər Unversiteti*, 270-273.

Widdowson, H. G. (1978). *Teaching language as communication*. Oxford university press.